# Rasim babanın çörək nağılı



## (hekayə)

***Qəşəm İsabəyli***

1

Hava qaralan kimi anam lampanı yandırıb qoydu pəncərənin qabağına. Axşamın ala-toranlığında boğulan evimiz işığa çıxdı.

-Ay Rasim, neftimiz elə lampadakıdı, ana qurban, dərsini hazırlayan kimi, söndür.

Ev tapşırıqlarını yazıb, dərslərimi oxuyub, kitab-dəftərimi torbaya yığıb, aparıb qoydum qapının ağzına - səhər dərsə gedəndə əlimə asan gəlsin. Lampanı söndürüb, soyunub girdim yerimə:

-Ana, tez gəl, "Armudan bəyin nağılı"nı danış, sonra yatım.

-Ay bala, tez gəlməyib, neyləyəcəm! Allah faşistlərin başına daş salsın! Müharibə bizi lap tənbəl eləyib. Yumağa qazanımız, silib təmizləməyə qab-qaşığımız yox?! Yazıq təndirimiz də özümüz kimi çörəyə tamarzı qalıb. Haçandı qalanıb eləmir - divarları da nəm çəkib, ovulub gedir. Bu qışdan çətin çıxa...

Anamın danışığı layla oldu - başımı balınca qoyan kimi yuxu gözlərimi basdı. Nə qədər yatmış-dım, bilmirəm, gördüm, yer altımdan qaçır. "Ay aman!" - ha çığırdım, səsimə səs gəlmədi. Ayağa da dura bilmirdim - elə yırğalanırdım - başım gic gedirdi.

-Rasim! Rasim!

-Hhh...

-Ana qurban, gözünü aç!

Güclə özümə gəldim:

-Hə?

-Başımıza daş düşüb, ay bala!

Dik atıldım:

-Nə daş?!

Anam çiynimi buraxıb, sağ əlini ağzına apardı:

-Sss... itin səsini eşitmirsən?! Heç belə hürdüyü olmayıb!

Qulaq verdim - doğrudan da Toplan özünü yeyib-tökürdü.

-Cin-şeytan olar ey, birdən, ay ana?!

-Təki adam olmasın, ay bala!

Gözlərim bərəldi:

-Nə dediyindi?!

-Gecənin bu vaxtı özgənin həyətinə girən düz əməlli adam olmaz!

İt gah səsini başına atır, gah çəpərin ayağına qaçır, gah da daş dəymiş kimi zingildəyirdi.

-Kimdisə, evə tərəf gəlir! - Birdən anamın gözləri alacalandı - yerə oturub, cəld başını soxdu yükün altına.

-Ay ana?! -Yerimdən sıçradım.

-Gözlə!

-Bəs mən?!

-Gəlmə!

-Ürəyim partlasın, deyirsən?!

-Qorxma! - Bir azdan yükün altından atamın tüfənginin lüləsi göründü, dalıyca da əli qundaqda anam - ayağa durub, qapının dalına keçdi. Artıq itimiz eyvanımıza tərəf hürürdü. Qəfildən bal-konumuzun taxtaları cırıldadı, dalıyca da qapımız basıldı. Anam arxasına ağac dirəmişdi deyə, qapını sındırmasaydın açılmazdı.

-Kimsən?! - Arvad nəfəsi kəsilə-kəsilə soruşdu.

Eşikdən pıçıltıya bənzər səs gəldi:

-Allah qonağı.

-Ay qardaş, Allah xatirinə, get, kişili evlərin qapısını döy.

-Sizdə kişi yoxdu?!

-Yoxdu da, mən cavab verirəm!

-Kişi - mən!

Anam bu sözləri eşidəndə necə qışqırdısa az qaldı qulaqlarım bata:

-Ağzının danışığını bil, əlimdə dolu tüfəng var!

Kişi yavaşca güldü:

-Mənim də çiynimdə çörək dolu yekə bir kisə!

-Çö-ö-rə-ək?! - Bayaq bağırıb atıldım qapının dalına. - Ana, aç, aç, ana, deyir, çörəyim var?!

-Belə dur! - Arvad sinəmdən itələdi. - Axmaq uşaq, çörək adıyla girib başımızı kəssin, deyirsən?!

-Həəə?!... Açma, ana, açma! - Tez kürəyimi qapının dalına verdim. - Qoy ac qalaq! -Ağladım.

O dəqiqə qapımız bərk-bərk döyüldü:

-Ay qız, uşağı ağlatma, mənəm - Şükürəm!

Birdən tüfəng anamın əlindən düşdü. Durduğu yerdəcə ayaqları qatlandı - dizləri üstə çökdü:

-Allaha şükür! Allaha şükür! - Göz yaşları anamın sifətini bürüdü. - Gözün aydın, ay Rasim!

-Kimdi, ana?

-Atandı!

-Ata-am?!

2

Çiynində kisə, əlində yol çantası atam içəri girdi - üz-gözü tük içindəydi - gözləri güclə görü-nürdü. Bizi qucaqladı.

-Səni gətirən yollara canım qurban, ay Şükür! - Baş-başa verib, ağlaşdıq.- Ay Şükür, sən gedəndən ilk dəfədir qapımız döyülür!

-Maşallah, Rasim lap yekə oğlan olub, sən də deyirsən, evimizdə kişi yoxdu!

-Yadına gəlir, - anam dedi, - sən müharibəyə gedəndə, güclə "də-də!" deyirdi, indi ikinci sinifdə oxuyur, maşallah!

Atam çörək kisəsini divara söykəyib, çantanı qoydu yanına, məni özünə tərəf çəkəndə əlindən çıxıb, kisəni qucaqladım:

-Ata, bu, çörəkdi?

-Çörəkdi, bala!

-Hamısı bizimdi?!

-Bizim olmasaydı, bizdə olmazdı ki?!

-Day ac qalmarıq!

Atam fikirli-fikirli anama baxdı.

-Arpa çörəyindən başqa yediyimiz olmayıb, ay Şükür. O da aydaildə bir. Yaxşı ki, qapınıın mermeyvəsi varmış.

-Tez ol yeri yığışdır, - atam tələsik dedi.

Yorğan-döşəyi qatlayıb basdıq evin küncünə. Anam qoynundan açar çıxartdı - sandığın kilidini açıb, qapağını qaldırdı.

-Orda nə var, ay ana?! - Təptəzə bir süfrə çıxartdı. - Bunu görməmişdim heç!

-Mən bunu alanda sənin üç yaşın da yox idi. Arzu eləmişdim - atan sağ-salamat qayıtsın, ilkini qabağına salım. Allah arzumu ürəyimdə qoymadı!

Atam yol çantasından yumru dəmir qablar çıxarıb yığdı süfrənin qırağına. Bıçaqla birinin qapağı-nı açıb, uzatdı anama:

-Ət konservidir...

-Ə-ə-ət?! - Cumub konservin birini götürdüm. - Nə yaxşı! Nə yaxşı!

-Qoy ocağın üstünə, qaynara düşən kimi götür. - Sonra atam mənə baxdı, - ay Rasim, bir çörək gətir, bala.

Tez qaçıb iki çörəyi qucağıma alıb, atamın yanına yüyürdüm.

-İki niyə?

-Birdən çatmaz, doymarıq!

Kişi gülümsəyib, çörəyin birini bıçaqla dilimləyib yığdı süfrəyə. Anam xörəyi gətirdi.

-Şorun var? - Atam ehtiyatla soruşdu.

Anam bir nəlbəki də şor gətirdi.

-Lap burnumun ucu göynəyirdi, vallah, şordan ötrü.

Ətin xoş iyi basdı otağı. Burnumu göyə tutub, iylədim:

-Uyyy... da-ad!

Anam bir kasa ət qoydu qabağıma. Çörəyimi suyuna batırıb, ağzıma apardım - dodaqlarım başladı öz-özünə marçıldamağa.

Atam əyilib üzümdən öpdü:

-Ye, sənə qurban!

Boşqabımın dibini də sıyırdım.

- Ay Çiçək, - atam anamı çağırdı, -uşağa bir qab da çək.

-Yox-yox, ata, istəmirəm. Yavan çörək yeyəcəm, xoşuma gəlir.

Bir azdan gördüm çənəm ağırağır tərpənir.

-Day yeyə bilmirəm.

-Niyə?

-Ağzım ağrıyır.

Anam ağlamsındı:

-Yazıq balam, dili-ağzı o qədər yeməyə həsrət qalıb, çörəyi çeynəməyə də gücü çatmır!

-Gəl səni öpüm, get yat, bala, gecdi. - Atam məni özünə sarı çəkdi. - Kişi balam!

Mən də atamın saqqalı üzündən öpdüm:

-Sabah qırxarsan bunu, ata!

-Gözüm üstə!

-Gecəniz xeyrə qalsın! Yuxunuz şirin olsun!

-Yuxun şirin olsun, mənim balam!

3

Dan üzü atayla ana yataq otağına kirəndə donub qaldılar - Rasim çörəyi qucaqlayıb, şirin-şirin yatırdı.